*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır   11 dekabr 2019-cu il   № 96 (2413)   Qiymәti 30 qəpik


## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Heydər Əliyev dahi şəxsiyyət, uzaqgörən lider, cəsarətli insan idi

*Bəşəriyyətin dünyaya bəxş etdiyi az sayda şəxsiyyətlər vardır ki, tarixdə onların bənzəri olmur, onlar insanlığın zirvəsinə çevrilir, xalqının sevimlisi, istinad mənbəyi olur, bütün ictimai və siyasi fəaliyyətini onun xoşbəxt gələcəyi naminə qurur, bir sözlə, insanlıq tarixində əbədiyaşarlıq qazanırlar. Bu şəxsiyyətlər sırasında xalqımızın ümummilli lideri Heydər Əliyevin alçatmaz, uca və bənzərsiz yeri var. Hələ sağlığında əfsanələşən, sarsılmaz iradəyə malik olan, bütün mənalarında zamanı qabaqlayan, xalqımızın yaddaşına Ulu Öndər kimi həkk olunan Heydər Əliyev fenomeni Azərbaycanın son 50 ilinin, xüsusilə müstəqillik dönəminin tarixini yazıb, tarixini müəyyənləşdirib.*



İllər bir-birini əvəz etdikcə Ümummilli Liderimizin şərəfli ömür yolu xalqına, böyük Türk dünyasına və bəşəriyyətə nə qədər yaxın və dəyərli olduğu daha aydın görünür. Onun məqsədyönlü fəaliyyəti nəticəsində müstəqil Azərbaycan dövləti azadlıq qazanaraq, qısa müddətdə dünya dövlətləri sırasında öz layiqli yerini tutdu. İnkişaf etmiş dövlətlərlə iqtisadi və siyasi əlaqələr quruldu. Ulu Öndərin sayəsində müstəqil Azərbaycan Respublikası azərbaycançılıq fəlsəfəsi əsasında qısa müddətdə tanınıb möhkəmləndi, inkişaf etmiş dünya ölkələri ilə əlaqələr qurdu, bütün sahələrdə uğurlar əldə etdi, öz haqqını dünyanın ən ali məclis və təşkilatlarında nümayiş etdirdi, dünya ölkələri iqtisadi və siyasi böhran keçirdiyi bir dövrdə inkişafa nail oldu.

Ulu öndər Heydər Əliyev yaşadığı dövrdə bəşəriyyətin nurlu, cəsarətli və yaradıcı dövlət xadimi kimi yaddaşlarda iz qoyub. O, tarixdə Azərbaycan xalqının Ümummilli Lideri, dünya miqyaslı ictimai-siyasi xadim, böyük mütəfəkkir, müstəqil Azərbaycan dövlətinin qurucusu, dövlətin inkişaf strategiyasının əsasını qoyan, azərbaycançılıq ideologiyasını yaşadan, Azərbaycan xalqının iradəsini ifadə edən siyasi lider kimi qalacaqdır. Dahi rəhbər xalqımızın ən çətin anında - sovet imperiyasının dağıldığı, ölkənin parçalandığı, xalqın ruhdan düşdüyü bir dövrdə siyasi meydana xalqın xilaskarı kimi daxil oldu. Ulu Öndər torpaqların itirildiyi, qaçqın və köçkünlərin artdığı bir zamanda Azərbaycan xalqına ruh verdi, onu müstəqil Azərbaycan uğrunda qələbəyə apardı. Bu dahi insan XX əsrin 60-cı illərindən ömrünün sonuna qədər məqsədyönlü və ardıcıl fəaliyyət göstərdi, xalqımızın nəyə qadir olduğunu nümayiş etdirdi, insanlarda azadlıq, müstəqillik ruhunu yüksəltdi, təhlükə qarşısında qalan müstəqilliyimizi qorumaq və möhkəmləndirmək üçün özünü qadir sərkərdəyə, xalqı isə cəsur əsgərə çevirməyi bacardı.

Ümummilli Liderimiz müstəqil Azərbaycan Respublikası qurulduqdan sonra dövlətin müxtəlif istiqamətlərdə fəaliyyətini müəyyənləşdirdi, onlar arasında əlaqəni yaratdı. Azərbaycan Konstitusiyasının müəllifi olan dövləti və xalqı müdafiə etməyə qadir olan ordu yaratdı, dağılmış iqtisadiyyatı dirçəltmək istiqamətində güclü iş apardı, Azərbaycanın siyasi və iqtisadi istiqamətlərdə aparıcı ölkələrlə bağlılığını təmin etdi. Azərbaycanın geosiyasi və tarixi şəraitə uyğun siyasətini müəyyənləşdirdi, enerji ehtiyatlarından xarici siyasətdə bacarıqla istifadə etdi, xalqımızın zəngin mədəniyyətini qorumaqla onu dünya xalqlarına tanıtdı. Ən önəmlisi, balanslaşdırılmış xarici siyasətin əsasını qoydu.

Etiraf etmək lazımdır ki, xalqımızın milli-mənəvi dəyərlərinin qorunmasında, onun dövlətçiliyimizin ayrılmaz tərkib hissəsinə və dövlət siyasətinin aparıcı qoluna çevrilməsində ümummilli lider Heydər Əliyev şəxsiyyəti mühüm rol oynamışdır. Əbədiyaşarlıq qazanan dahi rəhbərimizin fəaliyyətində bir tamlıq mövcuddur. Böyük şəxsiyyət azərbaycançılığın yaradıcısı, ilhamçısı və müdafiəçisi olmuşdur.

**(Ardı 2-ci səhifədə)**

Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Heydər Əliyev dahi şəxsiyyət, uzaqgörən lider, cəsarətli insan idi



(Əvvəli 1-ci səhifədə)

"Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam", - deyən Ulu Öndər xalqın ürəyində milli-mənəvi dəyərləri yaşatmaq üçün əbədi bir məşəl - Heydər Əliyev ideyaları məşəlini yandırmışdır. Bu məşəl ilahi bir varlığın istəyi ilə günügündən daha da güclənir, parlaq səmalarda Azərbaycanın simvoluna çevrilir.

Bəli, ölkəmizin müasir dönəmdə hərtərəfli inkişafı Heydər Əliyevin Azərbaycan dövlətçiliyinə qayıdışı, Azərbaycanın Prezidenti seçilməsi ilə başladı. Ulu öndər Heydər Əliyev Prezident seçilərkən xalq və dövlət qarşısında Konstitusiyaya və Qurani-Kərimə içdiyi anda sadiq qalaraq, biliyini, təcrübəsini, qüvvəsini Azərbaycan xalqının, Azərbaycan Respublikasının rifahına həsr etdi.

Prezident vəzifəsini ali məqsədlər, amallar naminə yerinə yetirdi. Azərbaycan Respublikasının tam müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü təmin etmək üçün əlindən gələni əsirgəmədi.

Azərbaycan Respublikasının Konstitusiyası və qanunlarının həyata keçirilməsinin təminatçısı oldu, milli mənsubiyyətindən asılı olmayaraq, Azərbaycan vətəndaşlarının hüquqlarının və azadlıqlarının qorunmasının, müdafiə edilməsinin təminatçısına çevrildi, Azərbaycan Respublikasında azadlığın, demokratik dəyişikliklərin, Azərbaycan Respublikasının demokratik hüquqi dövlət kimi inkişaf etdirilməsinin qollarını müəyyənləşdirdi. Azərbaycan Respublikasının dünya dövlətləri içərisində, dünya birliyində ləyaqətli yer tutmasına çalışdı.

Azərbaycan xalqının milli və mənəvi ənənələrinə daim sadiq qalaraq, bu ənənələrin Azərbaycanda bərqərar olmasına, yaşamasına təminat yaratdı.

Ulu Öndər xalqı üçün yaşadı, yaratdı, bütün ömrünü özünün də dediyi kimi, xalqına həsr etdi.

Bu gün hər bir azərbaycanlı fərəh hissi keçirir ki, dövlətimizin idarəçilik sükanı arxasında ümummilli liderimiz Heydər Əliyevin yetirməsi, onun yaratdığı siyasi məktəbin layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyev dayanır. İnanırıq ki, dövlətimiz ümummilli liderimiz Heydər Əliyev dühasından bəhrələnən, onun siyasi kursunun ən layiqli davamçısı olan ölkə Prezidenti İlham Əliyevin dövlətçilik bacarığı və rəhbərlik qabiliyyəti sayəsində müstəqilliyini və suverenliyini qoruyub saxlayacaq, daha da inkişaf edəcəkdir.

**"Azərbaycan Ordusu"**

## Azərbaycan Ordusunun komandir heyətinin toplanışı keçirilib



*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi döyüş hazırlığı planına əsasən, Azərbaycan Ordusunun komandir-rəis heyətinin iştirakı ilə keçirilən toplanış başa çatıb.*

Müdafiə nazirinin müavinlərinin, qoşun növləri və qisimləri komandanlarının, nazirliyin baş idarə, idarə və xidmət rəislərinin, birlik və birləşmə komandirlərinin, qərargah rəislərinin və digər məsul zabitlərin iştirak etdiyi toplanışdan əvvəl şəxsi heyətin sıra baxışı keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, nəzəri və praktiki məşğələlərdə toplanışa cəlb edilən şəxsi heyətin bilik və bacarığı, həmçinin fiziki və sıra hazırlığı yoxlanılıb.

Toplanışın sonuncu günü iştirakçılardan hərbi nizamnamələr, rəhbəredici və digər normativ hüquqi sənədlər üzrə məqbullar qəbul edilib, eləcə də atıcı silahlardan atışlar icra olunub.

## Azərbaycan və Polşa hərbi hüquq ekspertləri arasında görüş keçirilib

Azərbaycan Respublikası və Polşa Respublikası Müdafiə nazirlikləri arasında imzalanmış illik hərbi əməkdaşlıq planına əsasən, Bakıda iki ölkənin hərbi hüquq üzrə ekspertlərinin işçi görüşü keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə hüquq xidmətinin təşkili məsələləri, hərbi qanunvericilik və hərbi hüquqşünasların xidməti fəaliyyəti sahəsində qazanılan təcrübəyə dair qarşılıqlı fikir mübadiləsi aparılıb, hərbi qulluqçuların və onların ailə üzvlərinin sosial-hüquqi müdafiəsinin xüsusiyyətləri, eləcə də bir sıra digər məsələlər müzakirə olunub.

## Azərbaycan-Türkiyə-Qətər birgə hərbi təlimlərinin keçirilməsi hazırda Müdafiə Nazirliyinin fəaliyyət planına daxil deyil

*Müdafiə Nazirliyinin Mətbuat Xidməti Azərbaycan-Türkiyə-Qətər birgə hərbi təlimlərinin keçirilməsinin mümkünlüyü barədə məlumatın bəzi yerli KİV-lər tərəfindən təhrif edilməsinə münasibət bildirib.*

Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən AZƏRTAC-a daxil olan məlumatda qeyd edilib ki, çoxmilləti təlimlərin keçirilməsi barədə təklif ilk dəfə Türkiyə Baş Qərargahının ikinci rəisi general-polkovnik Metin Gürakın rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri zamanı səsləndirilib.

"Eyni zamanda, onu da qeyd edək ki, Azərbaycan-Türkiyə-Qətər birgə hərbi təlimlərinin keçirilməsi məsələsi hazırda Azərbaycan Müdafiə Nazirliyinin yaxın perspektiv fəaliyyət planına daxil deyil", - deyə məlumatda xüsusi vurğulanıb.

## "Azərbaycanda aparılan islahatlar demokratik prinsiplərə sadiqliyi nümayiş etdirir"

Azərbaycanda aparılan islahatlar və dəyişikliklər bu ölkənin demokratik prinsiplərə sadiqliyini nümayiş etdirir.

AZƏRTAC xəbər verir ki, bu sözləri ATƏT PA-nın prezidenti Georgi Tsereteli jurnalistlərə müsahibəsində söyləyib.

O deyib ki, Azərbaycanda aparılan islahatlar, gənclərin siyasi arenaya daxil olması böyük əhəmiyyət kəsb edir. İslahatlar deməyə əsas verir ki, Azərbaycanda seçiləcək yeni parlament daha enerjili və daha fəal olacaq.

Gənc zabitlərimiz

## "O sırada mən də olacam"



*Üz tutub getdiyimiz bu yolun başlanğıcı da Vətəndir, sonu da. Bu yolla zabit və əsgərlərimizin yanına gedirik. Ön xətdə əsgərlərlə bütün görüşlərdə qəlbimiz iftixarla, könlümüz fərəhlə dolur.*

Səngərdəyik. Leytenant Elgiz Sabirlinin hərəkətləri, əsgərlərlə davranışı onun haqqında gözəl təəssüratlar yaradır.

Belə vətənpərvər zabitin tabeliyində olan əsgərlər də xidmətlərində komandirlərindən nümunə götürməyə çalışırlar, təntənə ilə içdikləri Hərbi anda sadiq qalaraq qəhrəmanlarımızın döyüş yolunu davam etdirmək istəyirlər. Ali Baş Komandanın döyüş əmriylə torpaqlarımızı işğaldan azad edənlər sırasında onlar da döyüşəcəklər, qələbə qazanacaqlar. Cəsarət və hünərləri ilə sabahlarımızın qəhrəmanları olacaqlar.

Leytenant Elgiz Sabirli Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirib. Bunu özünə böyük şərəf bilən gənc zabit dedi ki, hərbçi olmaq, doğma ordumuzun sıralarında xidmət etmək, torpaqlarımızın keşiyində dayanmaq ən böyük arzum idi. "Azərbaycan Ordusunun sıralarında zabit kimi xidmət etməkdən qürur duyuram. Biz müqəddəs borcu şərəf və ləyaqətlə yerinə yetiririk. Əsgərlər Kənan Adamov, Məcid Məmmədov, Elçin Seyidov, Sənan Məmmədov və başqaları xidməti vəzifələrinə məsuliyyətlə yanaşırlar. Döyüş hazırlığı yüksək olan bu əsgərlər torpaqlarımızın azadlığı uğrunda savaşa hər an hazırdırlar."

Səngərlərdə torpaqlarımızı erməni işğalçılarından qoruyan zabit və əsgərlərin belə vətənpərvər və hazırlıqlı olması qələbəyə inamımızı daha da artırdı. Həm gənc zabit Elgiz Sabirlini, həm də onun tabeliyində olan əsgərləri sabahımızın qəlibləri kimi gördük.

Gənc zabit Elgiz Sabirli dedi ki, Ali Baş Komandanın əmriylə başlayacaq döyüşlərdə mən də iştirak edəcəm, bu döyüşü ömrümün mənası biləcəm...

**Vahid MƏHƏRRƏMOV,
"Azərbaycan Ordusu"**

# Əlahiddə Ümumqoşun Ordunun hərbi hissəsi üçün yeni qərargah binası istifadəyə verilib

*Müdafiə təhlükəsizliyinin təmin olunması Naxçıvan Muxtar Respublikasının davamlı inkişafının əsasıdır. Muxtar respublikada ordu quruculuğuna diqqətin artırılması, silah və texnika təminatı ilə yanaşı, həm də hərbi hissələrdə müasir xidmət infrastrukturunun və yaşayış şəraitinin yaradılması sahəsində də tədbirlər görülür.*

Ali Baş Komandan İlham ƏLİYEV:

*"Naxçıvanda təhlükəsizlik tədbirləri diqqət mərkəzindədir. Son illər ərzində bu istiqamətdə böyük işlər görülüb, ordu quruculuğu sahəsində böyük inkişaf var. Bu gün Naxçıvan ordusu ən müasir silahlarla təchiz edilib, texnikanın alınması təşkil olunub və bu proses davam etdirilir".*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, dekabrın 7-də Əlahiddə Ümumqoşun Ordunun hərbi hissəsi üçün yeni qərargah binası istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak edib.

Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev Ali Məclisin sədrinə raport verib.

Ali Məclisin sədri əsgərləri salamlayıb.

Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev çıxış edərək deyib: "Bu gün ölkəmizdə ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilir. Xidmətin təşkili və şəxsi heyətin yaşayışı üçün ardıcıl tədbirlər görülür. Muxtar respublikanın ucqar və keçilməz dağlıq ərazilərdə yerləşən bütün hərbi hissələrə yollar çəkilib, müdafiə zolağındakı məntəqələr davamlı elektrik enerjisi, təbii qaz və içməli su ilə təmin edilib. Bu ilin ötən dövründə Naxçıvan şəhərindəki hərbi şəhərciyin yaşayış binalarında yenidənqurma işləri aparılıb, qarnizon uşaq bağçası və tam orta məktəbin binası təmir olunub, zabit yataqxanasında müasir sosial-məişət şəraiti yaradılıb. Hərbi hissələr üçün 5 anqar, ön mövqelərdə 2 yataqxana tikilərək istifadəyə verilib, 2 tabor mərkəzi əsaslı təmir olunub. "N" hərbi hissədə zabit və gizir ailələri üçün beşmərtəbəli, çoxmənzilli yaşayış binası tikilib və park salınıb. Hazırda Naxçıvan şəhərindəki yeni hərbi şəhərcikdə inşa olunan üçmərtəbəli qərargah binasında son tamamlama işləri aparılır, hər biri üçmərtəbəli 2 yataqxana binasının tikintisi isə davam etdirilir." Kərəm Mustafayev yaradılan şəraitə və göstərilən qayğıya görə Əlahiddə Ümumqoşun Ordunun şəxsi heyəti, eləcə də zabit-gizir ailələri adından Ali Məclisin sədrinə minnətdarlıq edib.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov yeni qərargah binasının istifadəyə verilməsi münasibətilə şəxsi heyəti təbrik edərək deyib: "Azərbaycan Ordusu müstəqilliyimizin qarantıdır", - deyən ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu siyasəti bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən müasir tələblər nəzərə alınmaqla uğurla davam etdirilir. Həyata keçirilən tədbirlər nəticəsində Azərbaycan Ordusu inkişaf edərək güclü ordulardan birinə çevrilmişdir. Muxtar respublikamızda da ordu quruculuğu işləri uğurla davam etdirilir. Ötən dövrdə Naxçıvanda Əlahiddə Ümumqoşun Ordu, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyası, Naxçıvan Əlahiddə Əməliyyat Briqadası yaradılmış, qısa müddətdə mühüm təşkilatlanma və inkişaf yolu keçilmiş, hərbi hissələrdə geniş quruculuq işləri aparılmışdır."

Ali Məclisin sədri deyib: "Əlahiddə Ümumqoşun Ordunun strukturuna daxil olan hərbi hissələrin təyinatlarına uyğun olaraq yerləşdirilməsi, yeni əsgəri-məişət komplekslərinin tikilməsi, müasir silah-sursatla təminatı qarşıda duran əsas vəzifələrdəndir. Bu gün qərargah binası istifadəyə verilən hərbi hissənin yaradılması və müasir əsgəri-məişət kompleksi ilə təmin olunması da görülən işlərin davamıdır. Muxtar respublikanın paytaxtı Naxçıvan şəhərindəki hərbi hissələrlə yanaşı, ən ucqar məntəqələrdəki postlar üçün də müasir əsgəri-məişət kompleksləri tikilərək istifadəyə verilmişdir. Əsgərlərimiz yaradılan şəraitdən istifadə edərək Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyini və müdafiəsini etibarlı təmin edirlər."

Ali Məclisin sədri muxtar respublikanın müdafiəsində və təhlükəsizliyində xidməti olanlara təşəkkür edərək deyib: "Bu gün qarşıda duran əsas vəzifə hərbi hissələrin təyinatına uyğun olaraq hazırlıqların davam etdirilməsidir. Əlahiddə Ümumqoşun Ordunun strukturuna daxil olan hər bir hərbi hissə qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəlməli, şəxsi heyət hərb sənətinə mükəmməl yiyələnməlidir. Əgər bundan sonra da yaradılan şəraitdən düzgün istifadə olunsa, o zaman nəticə də yaxşı olacaqdır. Əlahiddə Ümumqoşun Ordu yaradılarkən qarşıda duran əsas vəzifələrdən biri peşəkar ordunun formalaşdırılması idi. Ona görə də bu gün hər bir hərbi hissənin təyinatına uyğun peşəkar şəxsi heyətlə təmin olunması, əsgərlərin müddətdən artıq xidmət edən hərbi qulluqçularla, gizir və zabitlərlə əvəzlənməsi uğurla aparılır."

Qeyd olunub ki, aparılan quruculuq işləri yalnız Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələrini əhatə etmir. Eyni zamanda, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyası üçün əsgəri-məişət komplekslərinin qurulması, lazımi xidmət şəraitin yaradılması, müasir texnika, silah və avadanlıqlarla təminat uğurla həyata keçirilir. Bu ilin ötən dövründə bir zastava yenidənqurmadan sonra istifadəyə verilmiş, iki zastavada isə yenidənqurma işləri davam etdirilir. Həmçinin Naxçıvan Əlahiddə Əməliyyat Briqadasının taboru üçün yeni kompleks, Naxçıvan Qarnizonu üçün müasir tələblərə cavab verən hərbi hospital inşa olunur. Bütün bunlar muxtar respublikamızda hərbi xidmətin nümunəvi təşkilinə hesablanmışdır. Qarşıda isə bir vəzifə durur: təyinat üzrə vəzifə borcunu yaxşı öyrənmək və xidməti lazımi səviyyədə icra etmək.



Ali Məclisin sədri yaradılan şəraitdən səmərəli istifadə olunacağına əminliyini bildirib, şəxsi heyətə xidmətdə uğurlar arzulayıb.

Zabit Orxan Mustafayev çıxış edərək deyib: "Əlahiddə Ümumqoşun Ordunun hər bir bölməsi göstərilən qayğı nəticəsində öz döyüş qabiliyyətini daha da artırır, şəxsi heyətin sosial-məişət şəraiti yaxşılaşdırılır. Ali Məclis sədrinin müəyyənləşdirdiyi "Hamı bir nəfər, bir nəfər hamı üçün" şüarı hər bir zabit və əsgər üçün işdə və əməldə birlik, qardaşlıq rəmzinə çevrilib." Orxan Mustafayev bütün şəxsi heyət adından Ali Məclisin sədrinə minnətdarlıq edib.

Hərbi qulluqçu Ayxan Fətullayev deyib: "Naxçıvan Muxtar Respublikasında hərbi qulluqçuların sosial-məişət və xidməti şəraitinin yaxşılaşdırılması, maddi-texniki bazanın gücləndirilməsi istiqamətində görülən işlər hər birimizi sevindirir, daha yaxşı xidmət etməyə səfərbər edir. Yeni yaradılan xidmət yerləri orduya cəlb olunan mənim kimi yüzlərlə hərbi qulluqçunun məişət şəraitinin, ailə vəziyyətinin və sosial-rifahının yaxşılaşdırılmasına hesablanıb." Ayxan Fətullayev çıxışını şeirlə yekunlaşdırıb:

*Günnütü fəth edən müzəffər ordu,*
*Bizim qürurumuz, vüqarımızdır.*
*Bir nəfər hamıdır, hamı bir nəfər,*
*Bu bizim əməldə şüarımızdır!*

Hərbi hissənin şəxsi heyəti "Hamı bir nəfər, bir nəfər hamı üçün" şüarını səsləndirib.

Ali Məclisin sədri qərargah binasının açılışını bildirən lenti kəsib.

Məlumat verilib ki, üçmərtəbəli qərargahın birinci mərtəbəsində bölmə komandirlərinin iş otaqları və məxfi hissə, növbətçi və istirahət otağı vardır. İkinci mərtəbədə siniflər, zabitlər üçün xidməti otaqlar, üçüncü mərtəbədə isə hərbi hissənin idarə heyəti üçün xidməti otaqlar və əməliyyatın planlaşdırılması mərkəzi yerləşir. Sinif otaqlarında proyektor quraşdırılıb, nəzəri hazırlıq üçün lazımi şərait yaradılıb.

Hərbi hissədə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçular üçün yataqxana da yaradılıb, avtomobil saxlancları qurulub, ətraf abadlaşdırılıb və yaşıllıqlar salınıb.

Ali Məclisin sədri xidmətin təşkili ilə bağlı müvafiq tapşırıqlar verib.

# Hərbi attaşelər və beynəlxalq təşkilatların nümayəndələrinin iştirakı ilə toplantı keçirilib

*Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində ölkəmizdə akkreditə olunmuş xarici dövlətlərin hərbi attaşeləri və beynəlxalq təşkilatların nümayəndələrinin iştirakı ilə illik toplantı keçirilib.*



Müdafiə naziri adından toplantı iştirakçılarını salamlayan idarə rəisi general-mayor Hüseyn Mahmudov onlara regiondakı hərbi-təhlükəsizlik vəziyyəti, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti, Azərbaycan Ordusunda aparılan islahatlar, quruculuq işləri, hərbi-təhsil sistemi və bu sahədə əldə olunan nailiyyətlər, eləcə də beynəlxalq hərbi əməkdaşlığın prioritetləri və istiqamətləri haqqında ətraflı məlumat verib, növbəti ildə planlaşdırılan fəaliyyətləri diqqətə çatdırıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Bakı Hərbi Attaşelər Assosiasiyasının Duayeni, Çin Xalq Respublikasının hərbi attaşesi baş polkovnik Çjan Tsunqo həmkarları adından toplantının keçirilməsinə görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirib və gələcəkdə də səmərəli əməkdaşlığın davam edəcəyinə ümidvar olduqlarını vurğulayıb.

# Kiyevdə GUAM-a üzv ölkələrin hökumət başçılarının görüşü keçiriləcək

Dekabrın 12-də Ukraynanın paytaxtı Kiyev şəhərində GUAM-a üzv ölkələrin hökumət başçılarının görüşü keçiriləcək.

Bu barədə AZƏRTAC-a GUAM-ın Milli Əlaqələndiricilər Şurasından məlumat verilib. Görüşdə Azərbaycanı Baş nazirin müavini Əli Əhmədovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edəcək.

Ukrayna, Gürcüstan və Moldovanın Baş nazirlərinin iştirak edəcəyi görüşdə 2020-ci ildə Azərbaycanın quruma sədrliyi dövründə həyata keçiriləcək layihələr, GUAM-ın səmərəliliyinin yüksəldilməsi, təşkilat üzvləri arasında əməkdaşlığın iqtisadi tərəfinin inkişafı müzakirə ediləcək.

Qeyd edək ki, GUAM-a sədrlik 2020-ci ilin yanvarın 1-dən Azərbaycana keçəcək.

# Naxçıvan Qarnizonu qoşunlarında təlim-metodiki toplantı

*"Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının 2019-cu tədris ilinə uzlaşdırma planı"na əsasən, hərbi hissə, tabor, divizion komandirləri və müavinləri ilə təlim-metodiki toplantı keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, nümayiş məşğələlərinə daha çox yer verildiyi toplantıda bölmələrlə müdafiə və hücum mövzusunda taktiki-sıra məşğələlərinin təşkili, hazırlanması və keçirilməsi metodikası göstərilib.

Taktiki-xüsusi hazırlıqdan pilotsuz uçuş aparatlarına qarşı mübarizə və hava hücumundan müdafiə üzrə döyüş atışlı nümayiş məşğələ keçirilib.



Bölmələrdə "Günün nizam qaydaları"na uyğun tədbirlərin icra olunması üzrə keçirilən nümayiş məşğələdə "Qalx" komandasından "Yat" komandasınadək şəxsi heyətin yerinə yetirdiyi tapşırıqlar və icra etdiyi fəaliyyətlər nümayiş etdirilib. Şəxsi heyətin sağlamlığı və qidalanmasına nəzarət, sıra baxışı və yerbəyerin təşkili, fiziki və sıra hazırlığının, ictimai-siyasi və hüquqi maarifləndirmənin keçirilməsi, qarovul və sutkalıq naryadın hazırlanması, vətəndaşların qəbulu və "Günün nizam qaydaları"na uyğun digər tədbirlər nümayiş məşğələdə öz əksini tapıb.

4 gün davam edən toplantıda əsas məqsəd zabitlərin bölmələri idarəetməsi üzrə komandir keyfiyyətlərinin təkmilləşdirilməsi, məşq, məşğələ və təlimlərin təşkili və keçirilməsi üzrə hazırlıqlarının yoxlanılması olub.

# Azərbaycan Ordusunda "İlin ən yaxşı psixoloqu" müsabiqəsinin yekun mərhələsi keçirilib

*Müdafiə nazirinin təsdiq etdiyi 2019-cu tədris ilinin hazırlıq planına əsasən, Azərbaycan Ordusunda "Vətənə, xalqa, dövlətə xidmət ömrümüzün mənasıdır" devizi altında keçirilən "İlin ən yaxşı psixoloqu" müsabiqəsinə yekun vurulub.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, müsabiqədə qoşun növləri, birlik və xüsusi təyinatlı təhsil müəssisələrinin hərbi psixoloqları iştirak edib. İştirakçılar müsabiqənin şərtlərinə uyğun olaraq hərbi hissəyə gələn yeni şəxsi heyətin qəbul edilməsi, onlarla fərdi-psixoloji və qrup şəklində psixoloji maarifləndirmə söhbətlərinin aparılmasını, eləcə də psixoloji sorğuların və testlərin keçirilməsi barədə fəaliyyətləri əks etdirən slayd və video materiallar təqdim edib, psixoloji işin metod və vasitələrinin düzgün tətbiq edilməsinə dair mövzularda fikir mübadiləsi aparıblar.

Yekun mərhələnin nəticələri təhlil edildikdən sonra qaliblər komandanlıq tərəfindən mükafatlandırılıb.



# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**9 dekabr 2019-cu il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan kəndində, İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Aşağı Əskipara, Məzəm, Qızılhacılı kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Şıxlar, Baş Qərvənd, Mərzili, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

**10 dekabr 2019-cu il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 20 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan kəndində, İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Fərəhli kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Kəngərli, Novruzlu, Mərzili, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Ordumuz istənilən an düşmənə sarsıdıcı zərbə vurmağa hazırdır!



*Ordu quruculuğu bu gün ölkə rəhbərliyinin ən çox önəm verdiyi strateji və dövlət əhəmiyyətli məsələlərdəndir. Ölkəmizdə dövlət rəhbərliyi səviyyəsində ordu quruculuğuna göstərilən diqqət və qayğı Azərbaycan Ordusunun ən müasir hücum və müdafiə silahları ilə təchiz edilməsində, döyüş hazırlığının günü-gündən yüksəldilməsində özünü büruzə verir. Dövlətin ən vacib atributlarından olan Azərbaycan Ordusuna göstərilən yüksək diqqət və qayğının nəticəsi olaraq bu gün ordumuz dünyanın ən güclü orduları sırasında yer tutur və istənilən hərbi əməliyyatı müvəffəqiyyətlə yerinə yetirməyə qadirdir.*

Son illər ordu quruculuğunda xüsusi diqqət yetirilən məsələlərdən biri də müxtəlif miqyaslı hərbi təlimlərin müntəzəm keçirilməsidir. Belə təlimlər birmənalı olaraq ən mühüm hərbi əməliyyat tədbiri olaraq şəxsi heyətin döyüş vərdişlərinin möhkəmləndirilməsində, qələbəyə olan inamın formalaşmasında başlıca rol oynayır. Ordumuzun bütün qoşun növlərində keçirilən təlimlərdə şəxsi heyətin qarşıya qoyulan tapşırıqların öhdəsindən bacarıqla gəlməsi bir daha sübut edir ki, Azərbaycan Ordusu dövlətin və xalqın inamını, etibarını hər addımda doğrultmağa hazırdır.

Müdafiə nazirinin təsdiq etdiyi 2019-cu il üçün döyüş hazırlığı planına əsasən, ümumqoşun poliqonlarında raket-artilleriya bölmələrinin döyüş atışlı taktiki təlimləri keçirildi. Nəzəri bilikləri və təhlükəsizlik qaydalarını mənimsəyən şəxsi heyətlə poliqonlarda müxtəlif mövzularda praktik məşğələlər təşkil olundu.

Təlimlər Raket və Artilleriya Qoşunlarının idarə edilməsi vərdişlərinin təkmilləşdirilməsi və bölmələrin döyüş uzlaşmasının səviyyəsinin artırılması, taktiki əməliyyatlar zamanı fəaliyyətlərin planlaşdırılması, bölmələrin idarə edilməsində digər qoşun növləri və qismləri ilə qarşılıqlı fəaliyyətin təşkili və digər məsələləri məşq etdirmək məqsədilə keçirildi. Təlimin niyyətinə uyğun olaraq bölmələr daimi dislokasiya məntəqələrini "Həyəcan" siqnalı ilə tərk edərək marş icra etdi, eləcə də ehtiyat atəş və start mövqelərinə çıxarılaraq müxtəlif tapşırıqları yerinə yetirdilər. Bölmələr şərti düşmənin müdafiəsinin dərinliyində yerləşən hədəfləri aşkar edərək, müxtəlif artilleriya qurğularından endirilən atəş zərbələri ilə məhv edilməsi çalışmalarını və digər praktiki tapşırıqları bacarıqla yerinə yetirərək qarşıya qoyulan məqsədlərə nail oldular.

Özüyeriyən artilleriya qurğularının tətbiqi ilə keçirilən döyüş atışlı taktiki təlimi Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin artilleriya ixtisası üzrə təhsil alan dördüncü kurs kursantları da izlədilər.

Təlimin ilk günü kursantlar istənilən hava şəraitində, günün istənilən vaxtında düşmənin yerüstü və hava hədəflərini məhv etməyə qadir olan müasir özüyeriyən artilleriya qurğuları ilə tanış oldular. Müxtəlif təlim nöqtələrində hərbi hissənin təcrübəli zabitləri kapitanlar Niyaməddin Tağıyev, Rəşad Məmmədov, Rafael Hüseynov, baş leytenantlar Fərid Əliyev və Kamil Zeynalov kursantlara müasir texnikaların taktiki-texniki xüsusiyyətləri, təyinatı, iş prinsipi haqqında geniş məlumat verdilər.

Kursantlar reaktiv sistemlərin avtomatlaşdırılmış idarəetmə sistemi ilə təchiz olunmuş simulyasiya sinfi ilə tanış oldular. Eyni zamanda, kursantlar tədris sinfindəki döyüş maşınını, batareya komandirinin idarəetmə maşınını, maşını simulyasiya edən kompüteri, məşğələ rəhbərinin iş yerinin kompüterini və şəbəkə mərkəzini müşahidə etdilər. Bildirdilər ki, tədris sinfində divizion və batareya tərkibində atəş hazırlıqlarının hazırlanması və döyüş maşınlarının avtomatik olaraq hədəfə tuşlanması şəxsi heyətə öyrədilir. Növbəti gün kursantlar divizionların döyüş maşınlarının yerləşməsini və atış çalışmalarını izlədilər. Əvvəlcə təlim rəhbərləri hazırlıq məşqlərinə cəlb olunan heyəti təhlükəsizlik qaydaları, atışın şərtləri və digər tələblərlə tanış etdilər. Səhra şəraitində keçirilən məşğələlərdə kursantlar bölmə komandirləri rolunda çıxış edərək yaradılmış taktiki vəziyyətə uyğun hərəkətləri yerinə yetirdilər. Təlimin son günündə isə gələcək zabitlər bölmələrin şərti düşmənin müdafiəsinin dərinliyində yerləşən hədəflərə döyüş atışını izlədilər.

Təlimin sonunda həm kursantlarla, həm də onlara rəhbərlik edən zabitlərlə həmsöhbət olduq, düşüncələrini öyrəndik. İlk olaraq AAHM-in baş müəllimi polkovnik-leytenant Sabit Qarayevlə kəlmələşdik. Tədris proqramında tətbiq olunan səhra çıxışları və çöl məşğələlərinin effektiv təsirini vurğulayan zabit son illər Azərbaycanda çox sürətli və yüksək səviyyədə aparılan ordu quruculuğu işinin artıq öz bəhrəsini verdiyini vurğuladı. "Bu gün Azərbaycan regionda ən güclü orduya malik olan dövlətə çevrilib. Sabitlik və dinamik iqtisadi inkişafla yanaşı, güclü ordu quruculuğu müasir Azərbaycanı xarakterizə edən əsas amillərdən biridir. Azərbaycan Ordusu istər döyüş qabiliyyəti, istər maddi-texniki təchizat, istərsə də hərbi texniki avadanlığa görə ən müasir ordular sırasındadır. Güclü ordunun mövcudluğu savadlı, bacarıqlı, vətənpərvər zabitlərdən asılıdır. Zabit ordunun əsas sütunudur desək, yanılmarıq. Danılmaz faktdır ki, kadr hazırlığının əsas hissəsi Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin müəllim və zabit heyətinin üzərinə düşür. Gələcəyin zabitləri yüksək hərbi biliklərə yiyələnmək üçün bu ali təhsil ocağında təhsil alırlar. Məktəb Azərbaycan Ordusuna ixtisasçı kadrların hazırlanmasında qabaqcıl təcrübəyə malikdir. Səksən illik tarixə malik Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin 4 fakültəsinin 21 kafedrasında 23 hərbi ixtisas üzrə zabitlər hazırlanır. Təhsilin əsas hissəsi məktəbdə keçsə də, kursantlar burada öyrəndikləri bilik və bacarıqları təlim mərkəzlərində praktiki olaraq yerinə yetirir, həmçinin çöl çıxışları zamanı hərbi sirlərə daha dərindən yiyələnirlər. Kursantlar bütün kurslarda iki semestr ərzində ən azı beş həftə səhra çıxışlarında olurlar. Bu da onların peşəkar zabit olmaq səviyyəsini yüksəldir."

Polkovnik-leytenant S.Qarayev keçirilən təlim haqqında da danışdı. O vurğuladı ki, təlimlər zabit, gizir və əsgərlərin hərbi bacarıq və səriştələrinin sınaqdan keçirilərək döyüş hazırlığının artırılmasında mühüm əhəmiyyət kəsb edir. "Qarşıya qoyulan bütün vəzifə və tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsi ilə keçirilən təlimlərin kursantlar tərəfindən izlənməsi, onların ixtisasları üzrə praktiki vərdişlərinin daha da təkmilləşdirilməsində əhəmiyyətli rol oynayır. Həmçinin belə çöl çıxışları kursantların mənəvi-psixoloji hazırlığına və döyüş ruhuna müsbət təsir edir. İxtisaslarına qarşı maraq və həvəslərini daha da artırır. Poliqonda kursantlara bilik və bacarıqlarını praktik olaraq icra etməsi üçün əməliyyat şəraiti yaradıldı. Onların hər birinə ixtisaslarına uyğun olaraq praktik məşqlər keçirildi. Real silah və texnikalardan istifadə etməklə keçirilən məşqlərdə gələcəyin zabitləri qərar vermə, şəraitə uyğun hərəkət etmə, dinləmə və digər bacarıqlarını daha da təkmilləşdirirlər."





Zabitlə söhbətimizi bitirdikdən sonra bir neçə kursantın da fikrini öyrəndik. Kursantlar Hüseyn Vəlizadə, Gündüz Babazadə, Xudaverdi Allahverdiyev, Əli Cahangirov, Ramin Abbaslı, Elman Hacızadə, Toğrul Fikrətli və digərləri sözə peşə seçimlərindən başlayaraq bu peşəni özlərinə həyat yolu seçdiklərini və bu yolun müqəddəs olduğunu dedilər. Gələn il H.Əliyev adına AAHM uğurla başa vuraraq, Azərbaycan Ordusunun zabiti olmağın sevincini və qürurunu yaşayacaqlarını söylədilər. "Müasir ordumuzun qurucusu ümummilli lider Heydər Əliyevin də dediyi kimi, hərbçi peşəsi bütün peşələrdən şərəflidir. Bu peşəni hər birimiz öz daxili istəyimiz və arzumuzla seçmişik. Zabit olduqdan sonra öhdəmizə düşən müqəddəs vəzifələrin mahiyyətini yaxşı dərk edirik. İstər nəzəri, istərsə də praktiki dərslərdə həvəslə iştirak edir, bacarıqlı zabitlər kimi formalaşmağa səy göstəririk.

İştirak etdiyimiz təlimdə ordumuzun güc və qüdrətinin, silahlanmamızda olan müasir texnikaların bir daha şahidi olduq. Artıq leytenant rütbəsi alıb zabit kimi xidmət etmək üçün səbirsizlənirik. Təlim zamanı müşahidə etdiklərimiz hər birimizə xoş ovqat aşıladı. Döyüş meydanında komandir davranışını, komandir-əsgər münasibətlərini və şəxsi heyətin fəaliyyətini izlədik. Şahidi olduq ki, komandir tabeliyində olanlara güvənir, əsgərlər isə komandirin inam və etibarını doğrultmağa çalışırlar. Bu da gələcək zabit kimi fəaliyyətimizdə böyük təcrübə oldu. Həmçinin ordumuzun gücünün, şəxsi heyətin yüksək döyüş əzminin göstəricisi olan təlimləri izlədikcə dövlətimizlə, ordumuzla və seçdiyimiz peşə ilə bir daha fəxr etdik", - kursantlar dedi.

Hər addımda şahidi olursan ki, AAHM-in məzunu olan zabitlər bilik, bacarıq, peşəkarlıq səviyyəsinə, liderlik xüsusiyyətinə və bir çox müsbət keyfiyyətlərə malikdirlər. Onların hər biri vətənpərvərliyi, qorxmazlığı, Vətən sevgisi ilə tabeliyindəkilərə şəxsi nümunə olur, döyüş meydanında əsgərləri ruhlandırmağı və arxasınca aparmağı bacarırlar. Müşahidələr göstərir ki, Ali Baş Komandanın əmri ilə Azərbaycan Ordusu təlimlərdə göstərdiyi potensial üstünlüyünü real nəticəyə çevirərək istənilən an düşmənə sarsıdıcı zərbə vurmaqla ərazi bütövlüyümüzü bərpa etmək, Qarabağımızı, ermənilərin zəbt etdiyi digər torpaqlarımızı qısa zaman kəsiyində azad etməyə tam hazırdır.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

# "Çingiz dastanı" cəbhəyanı bölgələrdə

## Müdafiə Nazirliyinin dəstəyi ilə Bakı Bələdiyyə Teatrı cəbhəyanı bölgələrə səfər edib

*Azərbaycan Respublikasının Xalq artistləri Amaliya Pənahova və Yusif Muxtarovun əsasını qoyduqları, fəaliyyətinə ulu öndər Heydər Əliyevin xeyir-dua verdiyi Bakı Bələdiyyə Teatrı mədəniyyət tariximizdə hadisə olmaqla yanaşı, həm də zamanın tələbindən, Qarabağ müharibəsinin odundan, alovundan yaranıb.*



Məqsədi ölkədə vətənpərvərlik işini daha da genişləndirmək, Azərbaycan əsgərinin döyüş ruhunu, mənəvi-psixoloji hazırlığını, qələbə əzmini, düşmənə nifrət hissini daha da yüksəltməkdir.

Müharibənin ən qızğın vaxtlarında teatrın yaradıcıları, eləcə də ətrafına topladığı görkəmli səhnə ustaları Sofiya Bəsirzadə, Mirvari Novruzova, Muxtar Avşarov, Məhluqə Sadıqova və başqaları ömürlərinin son vaxtlarını məhz cəbhə bölgələrində, Azərbaycan əsgərinə xidmətdə keçirmişlər. Heç də təsadüfi deyildir ki, xalqımızın ümummilli lideri Heydər Əliyev Bakı Bələdiyyə Teatrının fəaliyyətə başlamasının 10 illiyi ərəfəsində 23 nəfərə "Xalq artisti", "Əməkdar artist" və "Əməkdar mədəniyyət işçisi" fəxri adını verib.

Bakı Bələdiyyə Teatrı öz ənənələrini bu gün də unudulmaz sənətkarlarımızın yadigarı olan Aynur Muxtarovanın rəhbərliyi altında davam etdirir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, sənət ocağının yaradıcı kollektivi nazirliyin dəstəyi ilə Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun xatirəsinə həsr olunmuş "Çingiz dastanı" adlı ikihissəli mənzum tamaşa ilə bu günlərdə cəbhəyanı bölgələrə səfər edib.

Tamaşanın müəllifi və quruluşçu rejissoru Əməkdar incəsənət



xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbanidir.

Beyləqan Mədəniyyət Mərkəzində keçirilən tədbirdə polkovnik Abdulla Qurbani unudulmaz, əbədiyaşar, ulu öndər Heydər Əliyevin bu gün də aktual olan kəlamlarını xatırlayıb: "Ordunun qüdrətini, onun döyüş qabiliyyətini, qələbə iradəsini təşkil edən döyüşçülərin vətənpərvərlik hissidir. Hər bir əsgər, zabit, döyüşçü vətənpərvərlik hissini, Vətənə, torpağa, müstəqil dövlətimizə, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır. Məhz bu keyfiyyətləri özündə cəmləşdirən, əks etdirən Azərbaycan Ordusunun döyüşçüsü ordumuzu möhkəmləndirə bilər və hər an qələbəyə nail ola bilər".

Qeyd olunub ki, noyabr ayının 26-da Bakı Konqres Mərkəzində Bakı Dövlət Universitetinin 100 illiyi münasibətilə keçirilən təntənəli mərasimdə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bu məsələ barədə də ətraflı söhbət açıb və vətənpərvərlik tərbiyəsi işinin daha da genişləndirilməsi üçün yollar göstərib: "Gənclərdə vətənpərvərlik çox güclü olmalıdır. Gənclər milli ruhda, vətənpərvərlik ruhunda, ənənəvi dəyərlər əsasında tərbiyə olunmalıdır. Bax, belə gənclər ölkəmizi gələcəyə inamla aparacaq".

Bakı Bələdiyyə Teatrının növbəti səfəri də Azərbaycan Ordusunun əsasını təşkil edən gənclərin vətənpərvərlik və digər mənəvi dəyərlər əsasında tərbiyəsinə həsr olunub.

Nəzərə çatdırılıb ki, qəhrəmanlıq qəhrəmanla ölmür, onun ömrü uzun olur. Biz tarixi sərkərdələrimizi, qəhrəmanlarımızı, onların keçdiyi şanlı döyüş yolunu öyrənmədən, bilmədən yeni qəhrəmanlar yetişdirə bilmərik. Gələcək qəhrəmanlıqlarımızın kökü tariximizdə, milli-mənəvi dəyərlərimizdədir. Əsgər Çingiz Qurbanov da belə qəhrəmanlardandır.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Milli Qəhrəman Çingiz Qurbanovun ailə üzvlərini qəbul edərkən deyib: "Çingiz Qurbanov doğma torpağını müdafiə edərkən qəhrəmanlıqla həlak olmuşdur. Çingiz böyük qəhrəmanlıq, igidlik göstərmişdir. Düşmənlə üz-üzə qalaraq qeyri-bərabər döyüşdə bir daha düşmənə göstərdi ki, Azərbaycan əsgəri nəyə qadirdir. O, geri çəkilmədi, qorxmadı, baxmayaraq ki, təkbaşına böyük diversant qrupu ilə üz-üzə gəlmişdi. Son nəfəsinə qədər vuruşmuş, bir neçə işğalçını məhv etmiş, şəhidlik zirvəsinə ucalmışdır... Bütün Azərbaycan Çingizlə fəxr edir... Çingiz ölməyib, o, bizim ürəyimizdə yaşayır, yaşayacaqdır".

"Çingiz dastanı" tamaşası təqdim edilib. Çingizin doğulduğu Qusar rayonunun Həzrə kəndində Aprel döyüşlərində qazanılan uğurlardan sonra yaşanan qələbəlik, Azərbaycan Texniki Universitetini bitirərək kəndə qayıdan və valideynlərindən xeyir-dua alaraq həqiqi hərbi xidmətə yollanan Çingizin Vətən eşqi, intiqam hissi ilə alovlanan necə bir gənc olduğu aktyorların ifasında hamını bir amal, bir məqsəd naminə ölkə rəhbərliyinin ətrafında daha sıx birləşməyə ruhlandırıb. Kütləvi səhnələrdə Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı heyəti uğurla çıxış edib.

Tamaşanın ikinci hissəsi cəbhə bölgəsində "Açıq qapı" günü tədbiri ilə başlanıb. Çingizin də valideynləri Yeni il ərəfəsində hərbi hissəyə gəlib, Çingiz və digər əsgərlər valideynlərini təlimlərdə, döyüş hazırlığında qazandıqları uğurlarla sevindirirlər. Valideynlər övladları üçün yaradılan şəraitdən çox razıdırlar. Çingizin anası Nailə xanım "Arxadan vurulsan, oğul demərəm, oğul sinəsindən vurulmalıdır" - deyə yenə də övladına öyüd-nəsihət verir, atası Salman kişi bir daha babası Qurban kişinin Böyük Vətən müharibəsi illərində göstərdiyi şücaətləri oğluna xatırladır. Yeri gələrsə, Çingizin də babası kimi qəhrəman olacağına əminliyini bildirir.

Əsgərlərin nümunəvi çıxışları, komandirin valideynlərlə səmimi görüşü, çaparın gətirdiyi məktubun Çingizə müraciətlə yazdığı "Səni aparan yollar bir gün də qaytaracaq, bizdə də toy olacaq, sizdə də toy olacaq" kəlamının yaratdığı həzinlik tamaşaçılara duyğulu anlar yaşadıb. Çingiz son gülləyə, son nəfəsə qədər vuruşur və əbədiyyətə qovuşur.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Çingiz Qurbanov haqqında dediklərini tamaşaçılar ayaq üstə dinləyirlər.

Tamaşa başa çatdıqdan sonra Azərbaycanın Milli Qəhrəmanı polkovnik Şükür Həmidov, polkovnik Elşad Əbilov və Aprel döyüşlərinin iştirakçısı, "Azərbaycan Bayrağı" ordenli gizir Tahir Misirxanov səhnəyə qalxaraq teatrın kollektivinə minnətdarlıq edib və bu tamaşanın Çingizin xatirəsinə ehtiram əlaməti olmaqla, vətənpərvərlik tərbiyəsi işində də kəskin silah olduğunu bildiriblər.

Baş rolun ifaçısı Qarabağ mövzusunda çəkilən bir çox filmlərdə iştirak edən istedadlı aktyor İlqar Musayev, Əməkdar artistlərdən Səmayə Sadıxova, Əfqan Soltanov, Aydın Əliyev, Hüsniyyə Mürvətova və başqalarının çıxışları alqışlarla qarşılanır.

Bakı Bələdiyyə Teatrının cəbhəyanı bölgəyə səfəri davam edir.

* * *

Müdafiə Nazirliyinin dəstəyi ilə cəbhəyanı bölgəyə səfər edən Bakı Bələdiyyə Teatrının kollektivi Füzuli və Cəbrayıl rayonları istiqamətlərində Vətən torpaqlarının keşiyini çəkən Azərbaycan Ordusunun şəxsi heyəti ilə görüşüb, onların xidmət şəraiti ilə tanış olub, problem-qayğıları ilə maraqlanıb və ordumuzun bugünkü qüdrətindən, əsgərlərimizin döyüş və mənəvi-psixoloji hazırlığının çox yüksək səviyyədə olmasından fərəh hissi keçiriblər.

Horadiz şəhərindəki Heydər Əliyev Mərkəzində baş tutan vətənpərvərlik tədbiri ordu ilə xalqın sağlam mənəvi birliyinin nümayişinə çevrilib.

Bakı Bələdiyyə Teatrının kol-



lektivi şəhərlə tanışlıqdan sonra Heydər Əliyev Mərkəzində bölgənin müdafiəçiləri, şəhid ailələrinin üzvləri, müharibə veteranları və ictimaiyyət nümayəndələri qarşısında çıxış ediblər.

Tamaşadan öncə Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani çıxış edərək bildirib ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin Ali Baş Komandanlığı, xeyir-duası ilə başlanan Horadiz əməliyyatı hərb tariximizə şanlı səhifə kimi yazılıb. Bu əməliyyatda Azərbaycan Ordusu əsl qəhrəmanlıq nümunələri göstərib. Üzərində "Heydər Əliyev uğrunda!" sözləri yazılmış tank və digər zirehli texnikalar, artilleriya vasitələri ilə döyüş meydanına atılan igidlərimizin neçəsi şəhid olsa da, əsgərlərimiz ruhdan düşməyib, döyüşçü yoldaşlarının intiqamını alaraq düşmənə tutarlı zərbələr vurublar.

1994-cü il yanvarın əvvəllərində artıq Horadiz də daxil olmaqla 22 yaşayış məntəqəsi azad edilib və yüz hektarlarla ərazi tam nəzarətə götürülüb. Kəndlər yenidən qurulub. Çadır şəhərciklərində, yataqxanalarda, vaqonlarda məskunlaşmış məcburi köçkünlər öz yurd-yuvalarına qayıdıblar.

Ulu Öndərimizin diqqət və qayğısı ilə Horadizdə quruculuq işlərinə start verilib və bu yaşayış məntəqəsi də yenidən qurularaq ən müasir qəsəbəyə çevrilib.

2007-ci ildə Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə Horadizə şəhər statusu verilib. Dövlətimizin başçısının da qeyd etdiyi kimi, "Biz Horadiz şəhərinin timsalında dirçələn Azərbaycanı, qüdrətli Azərbaycan Ordusunu, ulu öndər Heydər Əliyevin siyasətini görürük".

Abdulla Qurbaninin "Çingiz dastanı" adlı ikihissəli mənzum tamaşası alqışlarla qarşılanıb.

Füzuli rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev və general-mayor Mayis Bərxudarov Azərbaycan Prezidenti İlham Əliyevin Bakı Dövlət Universitetinin 100 illiyi münasibətilə keçirilən mərasimdəki proqram əhəmiyyətli nitqindən sonra Müdafiə Nazirliyinin dəstəyi ilə Bakı Bələdiyyə Teatrının belə bir əsərə müraciət etməsini və bu vətənpərvərlikdən yoğrulmuş tamaşanın cəbhəyanı bölgələrdə nümayiş olunmasını təqdirəlayiq hadisə kimi qiymətləndirib, döyüşçülərin, eləcə də bölgədə yaşayan əhalinin vətənpərvərlik hissinin daha da yüksəldilməsində, onların qələbəyə inamının, əzminin daha da artırılmasında mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıblar.

Qeyd olunub ki, Ali Baş Komandanın rəhbərliyi altında 2016-cı ilin aprelində qazanılmış qələbə düşmən iradəsini sındırmaqla yanaşı, xalqımızın vətənpərvərlik ruhunu, ordumuzun qüdrətini, qələbə əhval-ruhiyyəsini daha da artırıb.

Azərbaycan Ordusunda hər bir əsgər Mübarizdir, Fəriddir, Çingizdir və hər kəs işğal altında olan digər torpaqlarımızın da azad edilərək respublikamızın ərazi bütövlüyünün bərpa olunacağına tam əmindir.

Şəhid ailələrinin üzvləri Milli Qəhrəman Çingiz Qurbanovun timsalında bütün şəhid ailələrinə göstərilən diqqət və qayğıya, şəhidlərin adlarının əbədiləşdirilməsi, xatirələrinin əziz tutulması istiqamətində görülən xeyirxah təşəbbüslərə görə dövlətimizin başçısı İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıq edib, Bakı Bələdiyyə Teatrının kollektivinə bundan sonra da yaradıcılıq uğurları arzulayıblar.

*İmadəddin Nəsimi - 650*

# İmadəddin Nəsiminin 650 illiyinə həsr olunmuş tədbirlər keçirildi

*Dahi şair İmadəddin Nəsimi Azərbaycan xalqının və Şərq dünyasının ədəbi klassiklərindən biridir. Dərin poetik fikirlərilə Şərqə yeni fəlsəfi düşüncə gətirən mütəfəkkir şair, ümumbəşər mədəniyyətinin qüdrətli söz ustalarından biri kimi təkcə Azərbaycan xalqının deyil, bütün dünyanın bədii söz sənətinin dəyərli incilərini dünya ədəbiyyatına daxil etməyi bacarmışdır. Böyük şair öz dövrünün elmi-fəlsəfi düşüncəsinə yenilik gətirərək, özünəməxsus poetik fikirlərilə insan əzəmətini, şəxsiyyət azadlığını, insani sevgini öz qələmilə tərənnüm etdirmişdir. İmadəddin Nəsimi dünya poeziyasının kamil nümunələri sırasında diqqətəlayiq yer tutan əsərlərində humanist ideyalara yeni deyim tərzi və bədii üslub gətirərək şəxsiyyət azadlığını analoqu olmayan tərzdə ifadə etmişdir.*





Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində dahi Azərbaycan şairi İmadəddin Nəsiminin anadan olmasının 650 illik yubileyi qeyd edilib.

Heydər Əliyev adına Hərbi Liseyin təşkilatçılığı ilə keçirilən tədbirdə liseyin rəisi general-mayor Məhəmməd Həsənov dahi mütəfəkkirin zəngin yaradıcılığından, Nəsimi irsinə göstərilən dövlət qayğısından danışıb. Bildirilib ki, Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə bu il ölkəmizdə "Nəsimi ili" elan olunub və şairin 650 illik yubileyi geniş qeyd edilir. Nəsimi yaradıcılığı ilə bağlı tədbirlərin keçirilməsi gənclərimizin, kursant və əsgərlərimizin vətənpərvərlik tərbiyəsində mühüm rol oynayır.

Tədbirdə İmadəddin Nəsiminin əsərlərini bədii qiraət edən kursant və şagirdlər ədəbi-bədii kompozisiya ilə çıxış ediblər. Heydər Əliyev adına Hərbi Liseyin kursantları şairin portretini çəkdikdən sonra "Nəsimi" bədii filmi nümayiş olunub.

* * *

Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin həyat yoluna nəzər salsaq görərik ki, dahi şair Azərbaycanın elm və mədəniyyət mərkəzlərindən biri olan Şamaxı şəhərində dünyaya göz açıb. Öz yaradıcılığında xalqına, dilinə, mənsubiyyətinə verdiyi dəyərin tərənnümü olaraq dahi şair qəzəllər toplusundan ibarət və 20 min misranı əhatə edən ədəbi irsinin əsas hissəsini ana dilində qələmə almışdır. Ərsəyə gətirdiyi əsərlərdə xalq ruhundan ilhamlandığını əks etdirən söz dahisinin yaradıcılığının miqyası o qədər geniş idi ki, o, Azərbaycan xalqının mənəviyyat xəzinəsində layiqli yerini tutmaqla yanaşı, dünya ədəbiyyatında da özünəməxsus yerin sahibidir. Nəsimi öz yaradıcılığında insana, Vətənə, dünyaya sevginin sərhədsiz olduğuna həmişə diqqət çəkirdi.

"N" hərbi hissəsində klassik Azərbaycan şairi, filosofu İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş "Nəsimi - 650" adlı tədbir keçirildi. Müdafiə nazirinin 2019-cu il üçün təsdiq etdiyi plana əsasən, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə böyük mütəfəkkir şairin şərəfinə təşkil olunmuş ədəbi-bədii gecədə hərbi hissənin şəxsi heyəti, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tələbələri, ölkəmizin tanınmış incəsənət adamları və ictimaiyyət nümayəndələri iştirak etdilər.

Tədbiri giriş sözü ilə açan Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi mayor İlkin Qayıbov Prezident İlham Əliyevin böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi ilə bağlı imzaladığı sərəncam və 2019-cu ilin "Nəsimi ili" elan edilməsinin əhəmiyyətindən danışdı. Zabit Nəsimi şəxsiyyətinin və onun yaradıcılığının ölkəmizin hüdudlarında və hüdudlarından kənarda təbliğinin aparılmasının vacibliyini vurğuladı. Qeyd olundu ki, ölkə rəhbərinin imzaladığı sərəncama əsasən silsilə tədbirlər, təqdimatlar keçirilir, şairin ədəbi irsinin yenidən öyrənilərək ictimaiyyətin diqqətinə çatdırılmasına yönəlik əvəzsiz işlər görülür.



Polkovnik-leytenant Zaur Həmidov tədbirdə iştirak edən qonaqları salamlayaraq Azərbaycan xalqının ədəbi və fəlsəfi fikir tarixində silinməz iz qoymuş mütəfəkkir şair İmadəddin Nəsiminin həyatı, onun yaradıcılığı haqqında tədbir iştirakçılarına dəyərli məlumatlar verdi. Zabit, həmçinin Nəsiminin yaşadığı dövr, onun əsərlərinin dil və üslub xüsusiyyətlərindən, bu gün onun zəngin bədii irsinin öyrənilməsi və tədqiqi istiqamətində rəhbərlik tərəfindən görülən işlərdən danışdı. Zabit Z.Həmidov çıxışında ulu öndər Heydər Əliyevin Nəsimi yaradıcılığına göstərdiyi diqqətin bu gün ölkə Prezidenti İlham Əliyev tərəfindən layiqincə davam etdirildiyini qeyd etdi. "Nəsiminin ilk dəfə yubileyinin ölkəmizdə təşkil edilməsinin təşəbbüskarı ümummilli lider Heydər Əliyev olub və bu gün həmin ənənə uğurla davam etdirilir ki, 2019-cu ilin "Nəsimi ili" elan edilməsi bunun bariz nümunəsidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanmış sərəncam dahi şair İmadəddin Nəsiminin həyat və yaradıcılığını, ədəbiyyatımıza verdiyi töhfələri yenidən dərk və təhlil etmək üçün əlverişli mühit yaradır".

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin əməkdaşı Gülxar Məmmədova Nəsimi əsərlərinin dünya poeziyasının ən kamil nümunələri sırasında diqqətəlayiq yer tutduğunu qeyd etdi. O bildirdi ki, ötən əsrin 70-ci illərində öz geniş fəaliyyəti sayəsində tarixi-mədəni dəyərlərimizə münasibətdə əsaslı dönüş ümummilli lider Heydər Əliyevin adı ilə bilavasitə bağlıdır. "Məhz Ulu Öndərin təşəbbüsü ilə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən Nəsiminin 600 illik yubileyi YUNESKO-nun tədbirləri siyahısına daxil edilmiş və 1973-cü ildə beynəlxalq miqyasda qeyd olunmuşdur. Ulu Öndərin mədəni irsimizin təbliğinə yönəlmiş siyasətini bu gün onun layiqli davamçısı, ölkə başçısı, Prezident İlham Əliyev davam etdirir. Məhz cənab Prezidentin sərəncamı ilə böyük şairimiz İmadəddin Nəsiminin yubileyini geniş şəkildə qeyd edirik. Nəsimi yaradıcılığı bizim milli-mənəvi varlığımızın ayrılmaz tərkib hissəsidir."

Tədbirdə çıxış edən digər qonaqlar İmadəddin Nəsiminin Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə bəxş etdiyi qüdrətli ədəbi klassiklərindən olduğunu vurğuladılar. Qeyd olundu ki, Nəsimi təkcə Azərbaycanın deyil, həmçinin Şərqin zəngin mədəni-mənəvi sərvətləri üzərində ucalmış və bədii söz sənətinin son dərəcə qiymətli incilərini meydana gətirmişdir. Həmçinin mütəfəkkir şair dərin poetik fikirlərlə fəlsəfi görüşlərin vəhdətində olan biri olaraq, dövrün elmi-fəlsəfi düşüncəsinin aydın ifadəçisinə çevrilmişdir. Çıxış edənlər dahi şairin əhəmiyyətli ədəbi irsinin qədim köklərə və çoxəsrlik ənənələrə malik Azərbaycan ədəbiyyatı tarixində xüsusi mərhələ təşkil etdiyini bildirdilər.

Sonda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin ifasında Nəsimi yaradıcılığına həsr olunmuş mahnılar ifa olundu və Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin tələbələri böyük şair İmadəddin Nəsiminin qəzəllərinin beytlərini səsləndirərək tədbir iştirakçılarına xoş ovqat bəxş etdilər. Tədbirin ərsəyə gəlməsində əməyi olan şəxslər fəxri fərman və hədiyyələrlə təltif edildilər.

**Baş leytenant
Fuad CƏFƏROV,
"Azərbaycan Ordusu"**

## “Cənubi Qafqazda yaranmış və Avropa üçün ciddi problem olan münaqişələr həll olunmalıdır”

*Mövcud münaqişələrin həllində ATƏT-in böyük potensialı var. Lakin onu da deməliyəm ki, bu problemlərin həlli üçün həm də siyasi liderlər tərəfindən iradə nümayiş etdirilməlidir.*

AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında ATƏT Parlament Assambleyasının prezidenti Georgi Tsereteli söyləyib.

ATƏT PA-nın prezidenti bildirib ki, münaqişələrin həllinə yönəlmiş müzakirələr və siyasi liderlər arasında baş tutan görüşlər mühüm əhəmiyyət kəsb edir və ilk növbədə Cənubi Qafqaz xalqlarının marağına cavab verir.

ATƏT Xarici İşlər Nazirləri Şurasının iclasında Azərbaycanın Xarici İşlər naziri ilə görüşünə toxunan Georgi Tsereteli deyib: "Söhbət zamanı biz mövcud prosesləri - qarşıdan gələn növbədənkənar seçkiləri, ATƏT-də Azərbaycanın iştirakını, islahatlar prosesini müzakirə etdik. Azərbaycan və Ermənistanın siyasi liderlərinin, həmçinin XİN başçılarının görüşü məsələsinə gəldikdə isə mən düşünürəm ki, bu görüşlər hər zaman xoş qarşılanmalıdır. Çünki münaqişənin həlli üçün daha çox qarşılıqlı anlaşma olmalıdır. Hesab edirəm ki, bu, münaqişənin sülh yolu ilə həlli üçün əsas vasitədir. Düşünürəm ki, on illər əvvəl meydana çıxan və bütün Avropa üçün ağrılı olan bu münaqişə həll edilməlidir".

*Nümunəvi xidmət*

## “Böyük Qələbə uğrunda döyüşlərdə də iştirak edəcəm”



*Səngərdə zabit və əsgərlərlə söhbətlərin hər biri ayrı-ayrılıqda həmin zabitin və əsgərin ömür və xidmət yolları ilə ətraflı tanışlığa bir vasitə olur. Ön mövqedə tanış olduğum hərbçilərdən biri də gizir Elnur Aslanov 17 ildən çoxdur doğma ordumuzun sıralarında xidmət edir.*

Gizir Elnur Aslanov Ağstafa rayonunda dünyaya göz açıb. Vaxtı çatanda o da ordu sıralarına çağırılıb. Bəzi yaşıdlarından fərqli olaraq Elnur həyatını orduya, hərbi xidmətə bağlayıb. O vaxtdan 17 il keçir. İki döyüş əməliyyatının iştirakçısıdır. İlk döyüşü 2008-ci ildə Goranboy istiqamətində olub. Ataşkəs rejimini pozan erməni işğalçıları qəflətən onlara hücum edib. Elnur da başqa hərbçilər kimi düşmən hücumunun qarşısını alanların sırasında olub. Gərgin döyüşdən sonra erməni işğalçıları geri oturdulub, dəqiq atəş zərbələri ilə susdurulub. Gizir Elnur Aslanov bu döyüşdə ayağından yaralanıb. Müalicə olunduqdan sonra xidmətini yenə də ön xətdə davam etdirib. Təlim-məşqlərdə hərbi bilik və döyüş vərdişlərini gənc əsgərlərə həvəslə öyrədib. Gələcəyin cəsur, qorxmaz hərbçilərinin hazırlanmasında bacarığını əsirgəməyib.

Gizir Elnur Aslanov Aprel döyüşlərində də iştirak edib və yaralanıb. Yaralansa da, sonacan vuruşub.

- Erməni qəsbkarları qəflətən mövqelərimizə hücum edəndə müdafiə tədbirləri görməyə başladıq, - gizir Elnur Aslanov bir anlıq qələbəylə nəticələnən döyüşləri xatırladı. - Qısa müddət ərzində düşmən hücumlarının qarşısı alındı. Əks-hücumu davam etdirərək erməniləri postlarına sıxışdırdıq. Həmlələrimiz qarşısında dayana bilməyən işğalçılar geri çəkildilər. Ermənilər hücumlarımızdan qorxaraq silahlarını da atıb qaçırdılar. Bir şeyə təəssüflənirəm ki, uğurla başa çatan Aprel döyüşlərində sonacan iştirak edə bilmədim. Vuruşmaq üçün özümə daha əlverişli mövqe seçmək istərkən dizlərimdən yaralandım. Döyüşçü yoldaşlarım məni hospitala çatdırdılar. Müalicəm uğurla yekunlaşdı. İndi özümü lap yaxşı hiss edirəm. Yenə də ön xətdəyəm. Böyük Qələbə uğrunda döyüşlərdə də iştirak edəcəm.

Zəngin döyüş təcrübəsi olan gizir Elnur Aslanov hazırda əsgərləri Vüqar Rüstəmzadə, İzzət Məmmədov, Fariz Əkbərov və başqaları ilə çiyin-çiyinə verərək torpaqlarımızın keşiyində dayanırlar.

**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# İdman

### Azərbaycan idmançıları Moskvada dünya rekordunu qıraraq çempion olublar



Rusiyanın paytaxtı Moskva şəhərində WRP (World Raw Powerlifting) Federasiyasının keçirdiyi dünya çempionatı başa çatıb.

Pauerliftinq üzrə dünya çempionatında Azərbaycan "Powerlifting" idmançıları tam heyətlə iştirak ediblər. 75 kiloqram çəki dərəcəsində çıxış edən Rövşən Xəlilov iki qızıl və bir gümüş medal qazanıb. O, üç hərəkətin cəmində 685,5 kiloqram qaldıraraq, dünya çempionu olub. Həmçinin, iki hərəkətin cəmində də Xəlilov dünya çempionluğu qazanıb. Onun bu nəticələri dünya çempionatının ikinci ən yaxşı nəticəsi sayılıb və beləcə, ona daha bir gümüş medal verilib.

Bundan başqa, idmançılarımız Ədilə Qurbanova, Elvin Müzəffərov (hər ikisi -67,5 kiloqram), Ramil Əhmədov (-90 kiloqram), Razim Hüseynov, Nicat Xosrovzadə (hər ikisi -125 kiloqram) qızıl medal qazanıblar. Ramin Rzayev (-75 kiliqram), Əli Əsgərov (-82 kiloqram), Hafiz Verdiyev (-100 kiloqram) və Aydın Hümbətov (-110 kiloqram) gümüş medala yiyələniblər.

Qeyd edək ki, bu yarışda Razim Hüseynov da 960 kiloqram nəticə ilə dünya rekorduna imza atıb.

### Tokioda növbəti yeniyetmə gimnastımız qızıl medal qazanıb



Yaponiyanın paytaxtı Tokioda keçirilən Batut Gimnastikası üzrə Dünya Yaş Qrupu yarışlarında növbəti idmançımız qızıl medal qazanıb.

Bu dəfə batut üzrə fərdi proqramda 11-12 yaşlı gimnastlar arasında Azərbaycanı təmsil edən Maqsud Maqsudov yarışların qızıl medalına sahib olub. Təsnifat mərhələsində bütün rəqiblərini üstələyən Bakı Gimnastika Məktəbinin yetirməsi, finalda da birinciliyi əldən verməyib. İdmançımızın şərəfinə "Tokio-2020" Yay Olimpiya Oyunları üçün inşa edilmiş Ariake İdman Sarayında Azərbaycanın dövlət himni səslənib, bayrağımız dalğalanıb.

### Elşən Məmmədov ağır atletika üzrə Avropa birinciliyinin ikiqat qalibi olub



İsrailin Eylat şəhərində keçirilən 15 və 17 yaşa qədər yeniyetmələr arasında Ağır Atletika üzrə Avropa Birinciliyi davam edir. Yarışda 37 ölkədən 498 idmançı (228 qız və 270 oğlan) iştirak edir. Onların arasında Azərbaycan yığmasının üzvləri də var. Yığmanın üzvü Elşən Məmmədov yaşı 15-ə qədər olan atletlər arasında 61 kq çəki dərəcəsində qüvvəsini sınayıb. Atletimiz birdən qaldırma hərəkətində 106 kq nəticə ilə gümüş medal qazanıb.

Təkanla qaldırma hərəkətində 129 kq nəticə göstərən idmançımız bu hərəkətdə bürünc medala sahib olub.

### Azərbaycanın iki taekvondoçusu Moskva Qran-Prisində medal qazanıb



Moskvada keçirilən Qran-Pri turnirinin final mərhələsində iştirak edən Azərbaycanın üç taekvondoçusundan ikisi medal qazanıb.

80 kiloqram çəki dərəcəsində mübarizə aparan Milad Beigi Hərçəqani braziliyalı Migel Martinsa və özbəkistanlı Nikita Rafalovica qalib gələrək finala vəsiqə qazanıb. O, həlledici döyüşdə Rusiya təmsilçisi Maksim Kramtçova uduzaraq turniri gümüş medalla başa vurub. Radik İsayev (80 kq yuxarı) isə bürünc medalla kifayətlənib.

**AZƏRTAC-ın materialları əsasında**

*Hərbi texnikalar, silahlar*

## “Uzi” pulemyot-tapançası



"Uzi" pulemyot-tapançası İsrailin “İsrael Military Industries” konserni tərəfindən hazırlanıb və silah pulemyot-tapança sinfinə aiddir. 1954-cü ildən indiyədək istehsal olunmaqdadır. İMİ konserninin məlumatına görə, hazırda "Uzi" silahı dünyanın ən yaxşı kütləvi silahlarından biri sayılır. Onun buraxıcı mexanizmi iki atəş rejimində işləyir. Ondan atəş tək-tək və avtomatik olaraq açılır. Silahın qoruyucusu sol tərəfdə - tutacağın yanında yerləşir, tam atəşaçmanı həyata keçirməyə imkan verən daha bir xüsusi qoruyucu isə tutacağın arxa tərəfində quraşdırılıb. "Uzi" pulemyot-tapançası dünyanın 95 ölkəsində istifadə edilir. Bir çox münaqişə və müharibələrdə istifadə edilib. "Uzi" pulemyot-tapançasının çəkisi maqazinsiz 3,5 kq, onun mini-Uzi silahının çəkisi 2,65 kq, mikro-uzi silahının çəkisi isə 2 kiloqram təşkil edir. 25 gülləli boş maqazininin çəkisi 0,2 kiloqram, təchiz olunmuş 25 gülləli maqazinin çəkisi isə 0,5 kiloqramdır. Silahın uzunluğu 650/470 mm-dir (mini-Uzi 600/300, mikro-Uzi 468/282 mm), lüləsinin uzunluğu 260 mm-dir. Güllənin ilkin sürəti saniyədə 400 metrdir. "Uzi"nin nişangah uzaqlığı 200 metrə qədərdir. Maqazini qutuvaridir, 25, 32, 40, 50 və ya 62 güllə tuta bilər. Nişangahı açıqdır.



**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 1022
Nüsxə 3950